Non official translation / Qeyri-rəsmi tərcümə

# İFADƏ AZADLIĞI




AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

## TEMATİK BÜLLETEN

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Tematik bülleten

Non official translation / Qeyri-rəsmi tərcümə

**Aprel 2021**

# İFADƏ AZADLIĞI

Bu xülasələrin hazırlanmasına yalnız Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamenti cavabdehdir və onlara görə Nazirlər Komitəsi heç bir şəkildə cavabdehlik daşımır.


**1. JURNALİSTLƏRİN TƏHLÜKƏSİZLİYİ ........ 3**

**2. MƏTBUAT VƏ JURNALİST AZADLIĞI ........ 4**

**3. İFADƏ AZADLIĞI VƏ JURNALİST MƏNBƏLƏRİNİN MÜDAFİƏSİ ........ 7**

**4. MEDİA PLÜRALİZMİ VƏ YAYIM LİSENZİYALARI (RADİO, TV) ........ 9**

**5. KOMMERSİYA VƏ BƏDİİ İFADƏ AZADLIĞI ........ 11**

**6. SEÇKİ MƏQSƏDLƏRİ ÜÇÜN MƏLUMATLARIN YAYILMASI ........ 12**

**7. DİGƏR ŞƏXSLƏRİN NÜFUZUNUN VƏ HÜQUQLARININ MÜDAFİƏSİ – QANUNUN VƏ SANKSİYALARIN TƏTBİQİNDƏ MÜTƏNASİBLİK ........ 14**

7.1 Digər şəxslərin nüfuzuna zərər yetirilməsinə və hüquqlarının pozulmasına görə cinayət prosesi 14

7.2 Təhqir və böhtanın kriminallaşdırılması ........ 16

7.3 Digər şəxslərin nüfuzuna və hüquqlarına zərər yetirilməsinə görə mülki icraat ........ 18

**8. İFADƏ AZADLIĞI VƏ MİLLİ TƏHLÜKƏSİZLİK, İCTİMAİ ASAYİŞ VƏ TERRORİZMLƏ MÜBARİZƏ ........ 19**

**9. CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ MƏHBUSLARIN MƏLUMAT ƏLDƏ ETMƏSİ VƏ İFADƏ AZADLIĞI ........ 21**

**İŞLƏRİN SİYAHISI ........ 22**

Avropa Məhkəməsinin formalaşmış presedent hüququna əsasən, ifadə azadlığı demokratik cəmiyyətin mühüm dayaqlarından biri, onun tərəqqisi və hər bir fərdin inkişafı üçün ilkin şərtlərdən biridir. Bu, təkcə müsbət qarşılanan, təhqiramiz hesab edilməyən və ya etinasız yanaşılan "məlumat" və "ideyalara" deyil, həm də insanları incidən, şoka salan və ya narahat edən "məlumat" və "ideyalara" aiddir – o, plüralizmi, tolerantlığı və açıqlığı nəzərdə tutur, bunlarsız isə "demokratik cəmiyyət" yoxdur.

Məhkəmə vurğulamışdır ki, ifadə azadlığından istisnalar vardır, lakin bunlar dar mənada şərh edilməlidir, çünki onun məhdudlaşdırılması zərurəti inandırıcı şəkildə sübut edilməlidir. 10-cu maddənin 2-ci bəndindəki "zəruri" sifəti "təcili sosial ehtiyacı" nəzərdə tutur. Bu bəndin müddəaları ifadə azadlığının iki sahədə – siyasi nitqlərdə və ictimai maraq doğuran məsələlərdə məhdudlaşdırılmasına çox az yer qoyur. Razılığa gələn Dövlətlər belə bir ehtiyacın mövcudluğunun qiymətləndirilməsində müəyyən dərəcədə sərbəstliyə malikdirlər, lakin bu sərbəstliyin reallaşdırılmasını nəzərdə tutan qanunlar və qərarlar üzərində, hətta həmin qərarlar müstəqil məhkəmə tərəfindən qəbul edilsə belə, Avropa nəzarəti mövcuddur.

Bu bülletendə Avropa Məhkəməsinin qərarlarının icrası kontekstində ifadə azadlığını, o cümlədən jurnalistlərin təhlükəsizliyini, mətbuat azadlığını və jurnalist mənbələrini, media plüralizmini və yayım lisenziyalarını, kommersiya və bədii ifadə azadlığını, seçki məqsədləri üçün məlumatların yayılmasını, digər şəxslərin nüfuz və hüquqlarını və qanunun və sanksiyaların tətbiqində mütənasibliyi, milli təhlükəsizlik, ictimai asayiş və terrorizmlə mübarizə kontekstində ifadə azadlığını və cəzaçəkmə müəssisələrində məhbuslardan məlumat əldə etmək azadlığını qorumaq və müdafiəsini təmin etmək üçün dövlətlər tərəfindən görülən və barəsində məlumat verilən ümumi və lazım gəldikdə fərdi tədbirlərə dair bir sıra nümunələr verilmişdir.

*Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur.*
*Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.*

# 1. JURNALİSTLƏRİN TƏHLÜKƏSİZLİYİ

*UKR / Gongadze (34056/02)*

[*Yekun qərar 08/02/2006*]

[Yekun qətnamə CM/ResDH(2009)74]

2000-ci ildə Avropa Məhkəməsi qərarında müəyyən etdi ki, hakimiyyət orqanları ərizəçinin ərinin həyatını qoruya bilməyib. Ərizəçinin hakimiyyətdə olanları tənqid edən şəxs kimi tanınan, jurnalist olan əri qaçırılmazdan və ölmüş halda tapılmazdan əvvəl naməlum şəxslər tərəfindən təhdid edilmişdi. Məhkəmə həmçinin müəyyən etdi ki, dörd ildən artıqdır ki, jurnalistin yoxa çıxması və ölümü ilə bağlı heç bir səmərəli hüquqi müdafiə vasitəsi mövcud olmayıb.

Avropa Məhkəməsinin qərarından sonra 2008-ci ildə üç polis əməkdaşı jurnalistin oğurlanması və qətlində təqsirli bilindi. Bundan əlavə, 2019-cu ildə jurnalistlərin təhlükəsizliyi ilə bağlı parlament dinləmələri keçirildi. Parlament dinləmələrində jurnalistlərin müdafiəsi üçün milli çevik reaksiya mexanizminin, o cümlədən hökumətin qaynar xəttinin yaradılması tövsiyə olundu. Belə bir mexanizmin, o cümlədən onlayn platformanın tətbiqi formaları 2020-ci ildə iki onlayn tədbirdə müzakirə olundu.

Bundan əlavə, 2020-ci ildə “jurnalist” anlayışını genişləndirən və jurnalistlərə qarşı hüquqpozmalara görə məsuliyyəti artıran qanun layihəsi parlamentdə qeydiyyata alındı. Hakimlər, prokurorlar və polis əməkdaşları üçün jurnalistlərin müdafiəsi üzrə ixtisaslaşdırılmış təlim Milli Magistratlar Məktəbi, Prokurorların Tədris Mərkəzi və Daxili İşlər Nazirliyinin Milli Akademiyası tərəfindən Avropa Şurasının dəstəyi ilə müştərək qaydada hazırlandı.

# 2. MƏTBUAT VƏ JURNALİST AZADLIĞI

**Avropa Məhkəməsinin müəyyən etdiyi prinsiplərin daxili məhkəmələr tərəfindən birbaşa tətbiqini asanlaşdırmaq üçün Konstitusiyaya dəyişiklik**

***NOR / Tønsbergs Blad AS və Haukom(510/04)***

*Yekun qərar 01/06/2007*

Yekun qətnamə CM/ResDH(2009)7

Ərizəçilərin (onlardan biri "Tønsberg Blad" regional gündəlik qəzetini çap edən şirkət idi) böhtana görə şikayət ərizəsi əsasında cinayət məsuliyyətinə cəlb edildiyi bu işdə onlar daimi yaşayış tələbinin pozulduğunu iddia edən məqalələri mətbuatda dərc etdiklərinə görə cəzalandırılmışdılar və Avropa Məhkəməsinin bu iş üzrə gəldiyi nəticələrə cavab olaraq hakimiyyət orqanları bildirdilər ki, ərizəçilərin dosyesinə məhkumluqları barədə heç bir qeyd daxil edilməyib.

Bundan əlavə, Avropa Məhkəməsinin ifadə azadlığı prinsiplərinin məhkəmələr tərəfindən birbaşa tətbiqini asanlaşdırmaq üçün tədbirlər görülüb. Avropa Konvensiyası Norveç qanunvericiliyinə 1999-cu il tarixli Qanunla daxil edilmişdir, həmin qanunda Konvensiyanın daxili qanunvericilikdən üstün olduğu bildirilir. 2004-cü ildə bu işin faktları baş verdikdən sonra Konstitusiyanın ifadə azadlığı barədə maddəsinə belə bir dəyişiklik edilib ki, heç kəs ifadə azadlığı, həqiqətin axtarışı, demokratiyanın müdafiəsi və hamının öz fikirlərini formalaşdırmaq azadlığı zəminində məlumat və ya ideyaların ötürülməsinə və ya alınmasına görə məsuliyyət daşıya bilməz. Dövlət orqanlarının bildirdiyinə görə, Konstitusiyanın Ali Məhkəmə və Avropa Məhkəməsinin presedent hüququnun işığında tətbiq edilməsi ifadə azadlığı hüququ ilə digər hüquqlar arasında düzgün balansı təmin edəcək.

---

**Müsahibə və ya sitatların dərc edilməsinə icazə almaq öhdəliyi ilə bağlı şərtləri aydınlaşdıran qanunun qəbulu**

***POL / Wizerkaniuk (18990/05)***

*Yekun qərar 05/10/2011*

Yekun qətnamə CM/ResDH(2019)98

Yerli deputatla müsahibəni qabaqcadan icazə almadan dərc etdiyinə görə yerli qəzetin redaktoru və ortaq mülkiyyətçisinin cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar olaraq 2017-ci ildə qəbul edilmiş qanunla Avropa Məhkəməsinin etiraz etdiyi müddəalarda dəyişiklik edildi. Ən mühüm dəyişiklik müsahibə və ya sitatı dərc etmək üçün icazə alma tələbinə aydınlıq gətirilməsi oldu.

Qanuna görə, müsahibə və ya sitatı icazəsiz dərc etmək artıq cinayət deyil, cərimə səbəb olan xətadır. Beləliklə, jurnalist müsahibə verənin açıqlamasını olduğu kimi dərc edibsə, hətta bu dərc etmə icazə tələblərinə tam cavab verməsə belə, cəzalandırıla bilməz. Bundan əlavə, bu qayda qüvvədə saxlanılıb ki, açıqlamasının yayılmasına müsahibə verənin icazə verməsi ilə bağlı tələbə jurnalist maneə yarada bilməz və bu istisna da qüvvədə qalıb ki, açıqlama artıq dərc olunubsa, icazə alınması tələb olunmur.

---

**Ölkədaxili presedent hüququnda məlumat və fikir azadlığı ilə şərəf, ad-san və nüfuzun qorunması hüququ arasında balansın gözlənilməsinə yönələn dəyişiklik**

***POR / Medipress-SociedadeJornalística e Editorial, Lda (55442/12)***

*Yekun qərar 30/11/2016*

Yekun qətnamə CM/ResDH(2019)201

Mətbuat şirkəti olan ərizəçiyə məxsus jurnalda məqalənin dərc edilməsi nəticəsində o vaxtkı Baş nazirin nüfuzuna vurulan zərərə görə ərizəçiyə qarşı qaldırılmış mülki iddiaya münasibətdə Məhkəmənin qərarından sonra hakimiyyət orqanları ölkədaxili presedent hüququnun təkmilləşdirildiyini qeyd etdilər. Bu təkmilləşdirmə məlumat və fikir azadlığı hüququ ilə şəxsin şərəf və nüfuzunun qorunması hüququ arasında balansa aiddir. Beləliklə, Ali Məhkəmənin qərarlarında Avropa Məhkəməsinin presedent hüququndan götürülmüş mülahizələr öz əksini tapır və Ali Məhkəmə mübahisələndirilən məqalələrin ümumi maraq doğuran ictimai müzakirə

kontekstində formalaşmış fikirləri (qiymətləndirici mülahizələri) əks etdirdiyini və eyni zamanda ağlabatan tənqid hüdudlarını aşmadığını hesab edərsə, zərərin ödənilməsi barədə tələbləri rədd edir.

**Məhkəmə materiallarına çıxışa və "məxfilik" şərtlərinin yumşaldılmasına aid qanunvericilik islahatı**

*POR / Colaço Mestre və Sociedade Independente de Comunicação (11182/03+)*

*Yekun qərar 26/07/2007*

**Yekun qətnamə CM/ResDH(2015)115**

Jurnalistin "istintaq sirrini" və ya "ədalət mühakiməsi sirrini" (*segredo de justiça*) pozduğuna görə cərimə və ya 86 gün müddətində alternativ həbs cəzasına məhkum edilməsi ilə bağlı Konvensiya pozuntusunun təkrarlanmasının qarşısını almaq məqsədilə 2007-ci il tarixli qanunla Cinayət Prosessual Məcəlləsində qanuni qüvvəyə minmiş hökmlərə yenidən baxılmasına icazə verən dəyişiklik edildi. Yenidən baxma üçün vəsatət prokuror və məhkum tərəfindən təqdim edilə bilər.

İş üzrə faktlar baş verdiyi zaman qüvvədə olan Cinayət Prosessual Məcəlləsində nəzərdə tutulurdu ki, hakim işin istintaqını apardığı müddətdə bütün tərəflər və iş materiallarına çıxışı olan digər şəxslər ədalət mühakiməsi sirrini qorumağa borcludurlar. 2007-ci il tarixli qanunun qüvvəyə minməsi ilə "ədalət mühakiməsi sirrini" qorumaq tələbi artıq məhkəməyə qədərki müddətdə avtomatik olaraq tətbiq edilmir, yalnız işin istintaqını aparan hakim və ya onun rəhbərliyi altında istintaq aparan prokuror tərəfindən qəbul edilmiş xüsusi qərar əsasında tətbiq edilir. Hakimiyyət orqanları qeyd ediblər ki, praktikada böhtana görə azadlıqdan məhrum etmə cəzası verilmir.

**İfadə azadlığı və nüfuzun müdafiəsini analiz etmək və balanslaşdırmaq üçün presedent hüququnda dəyişiklik edilməsi**

*SVN / Mladina d.d. Ljubljana (20981/10)*

*Yekun qərar 17/07/2014*

**Yekun qətnamə CM/ResDH(2017)111**

Naşirin (həftəlik "*Mladina*" qəzetinin naşirinin) polemik jurnalist məqaləsinin dərci ilə əlaqədar ifadə azadlığı hüququ ilə parlament üzvünün nüfuzunun qorunması hüququ arasında balansla bağlı Avropa Məhkəməsinin qənaətlərinə cavab olaraq, Konstitusiya Məhkəməsi sözügedən iki hüquq arasında ədalətli balans yaradılması məqsədi ilə presedent hüququnda dəyişiklik etdi. Beləliklə, Konstitusiya Məhkəməsi 2014-cü ildə analoji iş üzrə çıxardığı qərarda ifadə azadlığının pozulduğunu müəyyən etdi və buna görə də Avropa Məhkəməsinin qərarına uyğun olaraq yeni qərarın qəbul edilməsi üçün işi aşağı instansiya məhkəməsinin hakiminə qaytardı.

**Nəşrlərin müsadirə olunması, qadağan edilməsi və qarşısının alınması ilə bağlı presedent hüququnda düzəliş və dəyişikliklər**

*TÜR / Saygılı və Bilgiç (33667/05)*

*Yekun qərar 20/08/2010*

**Yekun qətnamə CM/ResDH(2019)26**

Qəzetin 30 gün müddətinə bağlanmasına münasibətdə Avropa Məhkəməsinin qərarından sonra hakimiyyət orqanları qəzetin müsadirəsi və bağlanmasına dair qərarların ləğv edildiyini bildirdilər.

Bundan əlavə, bu iş üzrə faktlar baş verdikdən sonra 2012-ci ildə qanunvericiliyə edilmiş dəyişikliklərdə nəzərdə tutulur ki, mətbu nəşrlərin müsadirə olunması, dərcinin qadağan edilməsi, yayılmasına və satışına maneçilik törədilməsi ilə bağlı əvvəlki qərarlar etibarsızdır. Bu iş üzrə faktlar baş verdikdən sonra qüvvəyə minmiş 2004-cü il tarixli "Mətbuat haqqında" Qanunun müddəaları nəşrlərə həbs qoyulması üçün obyektiv və qərəzsiz qiymətləndirmə meyarlarının olmasını tələb edir və bu tədbir məhkəmə qərarına əsaslanmalıdır. Bundan başqa, bu iş üzrə faktlar baş verdikdən sonra qüvvəyə minmiş Cinayət Prosessual Məcəlləsində müsadirə qərarlarının yalnız cinayət baş verdiyinə dair əsaslı şübhə və ya konkret sübutlar olduqda veriləbiləcəyi nəzərdə tutulur.

Ölkədaxili presedent hüququna gəlincə, Məhkəmənin qərarından sonra cavabdeh dövlət "Mətbuat haqqında" Qanunun birinci instansiya məhkəmələri tərəfindən effektiv tətbiqinə dair konkret nümunələr təqdim etdi.

**İfadə azadlığı hüququnun maneəsiz həyata keçirilməsini təmin edən qanunvericilik dəyişiklikləri**

*UKR / Ukrainian Media Group (72713/01)*

*Yekun qərar 12/10/2005*

Yekun qətnamə CM/ResDH(2007)13

2000-ci ildə siyasi namizədləri tənqid edən iki məqalənin mətbuatda dərcindən sonra böhtanla bağlı tətbiq edilən mülki hüquqi sanksiyanın vurduğu zərəri aradan qaldırmaq üçün hakimiyyət orqanları böhtana aid qanunvericiliyə 2003-cü il tarixli Qanunla dəyişiklik edildiyini bildirmişlər. Belə ki, qanuna qiymətləndirici mülahizələrin məsuliyyətə səbəb olmamasına imkan verən yeni maddə əlavə edilmişdir. "Qiymətləndirici mülahizə" termini "*faktlara dair məlumatı əks etdirməyən*" və "*sübut oluna və ya təkzib edilə bilməyən ifadələr*" kimi müəyyən edilir.

2006-cı ildə qəbul edilmiş qanunla qanunvericiyə edilmiş dəyişikliklərə əsasən, dövlət və yerli özünüidarə orqanları yalan məlumatın dərcinin səbəb olduğu mənəvi ziyana görə kompensasiya tələb edə bilməzlər, hərçənd ki, cavab hüququnun həyata keçirilməsini tələb edə bilərlər. Qanun "vicdanlı yanılmanın" müdafiəsini nəzərdə tutur. Belə ki, məhkəmə jurnalistin vicdanla hərəkət etdiyini və məlumatı yoxladığını müəyyən edərsə, jurnalistlər və media subyektləri yalan məlumat dərc etməyə görə məsuliyyətdən azad edilirlər. Bu kontekstdə mənəvi ziyana görə kompensasiya yalnız jurnalistin və ya nəşrin qərəzli niyyəti olduğu halda təyin edilə bilər. Qərəzli niyyət cəmiyyətdə sabitliyi pozmaq məqsədi ilə yalan məlumatların yayılması kimi müəyyən edilir.

Bundan başqa, 2005-ci ildə Mülki Məcəlləyə daxil edilmiş maddələrdən birində rəsmi mənbələrdən əldə etdiyi məlumatı yayan şəxsin onun həqiqiliyini yoxlamağa borclu olmadığı və məlumat təkzib edildikdə məsuliyyət daşıya bilməyəcəyi nəzərdə tutulur. Eyni zamanda, rəsmi mənbələrdən alınan məlumatlar təqdim edildikdə mənbə bildirilməlidir.

# 3. İFADƏ AZADLIĞI VƏ JURNALİST MƏNBƏLƏRİNİN MÜDAFİƏSİ

**Jurnalist mənbələrinin müdafiəsi haqqında qanunun qəbul edilməsi**

Ərizəçilərin – dörd jurnalistin və iki jurnalist assosiasiyasının evlərində və iş yerlərində aparılan axtarışlara münasibətdə Məhkəmənin qərarından sonra müsadirə edilmiş əşyaların və sənədlərin bir hissəsi geri qaytarıldı, qalanları isə artıq onlar üçün maraq kəsb etmirdi.

İş üzrə faktlar baş verdikdən sonra 2005-ci ildə jurnalist mənbələrinin müdafiəsi haqqında qanun qəbul edildi ki, bu da belə mənbələrin müəyyən edilməsini, o cümlədən axtarış və ya götürmə yolu ilə müəyyənləşdirilməsini qadağan edir. Qanunla bu qadağadan yeganə istisna ondan ibarətdir ki, bu tədbirlər bir və ya bir neçə şəxsin fiziki toxunulmazlığına ciddi təhlükə yaradacaq cinayətlərin törədilməsinin qarşısının alınmasına yönəlibsə və axtarılan informasiya həlledici əhəmiyyəti daşıyırsa və başqa üsulla əldə edilə bilməzsə, hakimin tələbi ilə belə tədbirlər həyata keçirilə bilər.

***BEL / Ernst və başqaları (33400/96)***

*Yekun qərar 15/10/2003*

Yekun qətnamə CM/ResDH(2010)39

**Mediada ifadə azadlığı və jurnalist mənbələrinin qorunması haqqında qanunun qəbulu**

Qanun pozuntusunun mənfi nəticələrinin aradan qaldırılması üçün axtarışlar zamanı götürülmüş sənəd geri qaytarılmış və məhkəmə istintaqı dayandırılmışdır.

2004-cü ildə qəbul edilmiş "Mediada ifadə azadlığı haqqında" Qanunda jurnalist mənbələrinin müdafiəsi ilə bağlı xüsusi maddə var, orada deyilir ki, belə müdafiə hüququ jurnalistin şahid qismində prosesə cəlb olunduğu hallarla məhdudlaşmır.

Böhtanla əlaqədar cinayət prosesində və yaxud şəxsin şərəf və ya nüfuzuna zərər yetirilməsi ilə əlaqədar mülki prosesdə mənbələrin müdafiəsi hüququ ilə iddia edilən faktların doğruluğunu sübut etmək öhdəliyi arasındakı ziddiyyəti həll etmək üçün qanunda nəzərdə tutulur ki, jurnalist ya iddiaların doğruluğunu sübut etməklə, ya da bildirilən faktların həqiqətə uyğun olduğu və ictimaiyyətin sözügedən məlumatı bilmək marağının üstün tutulmalı olduğu qənaətinə gəlmək üçün yetərli addımlar atdığını sübut etməklə məsuliyyətdən yaxa qurtara bilər. 2004-cü il tarixli qanun daxili qanunvericiliyi Avropa Məhkəməsinin presedent hüququna və "Jurnalistlərin öz məlumat mənbələrini açıqlamamaq hüququna dair" Nazirlər Komitəsinin üzv dövlətlərə R(2000)7 saylı Tövsiyəsinə uyğunlaşdırmaq məqsədi daşıyır.

***LÜK / Roemen və Schmit (51772/99)***

*Yekun qərar 25/05/2003*

Yekun qətnamə CM/ResDH(2011)127

**Qanunvericilikdə ifadə verməkdən və məlumat mənbələrini açıqlamaqdan imtina etmək hüququnu nəzərdə tutan dəyişiklik edilməsi**

2018-ci ildə Məhkəmənin qərarının icrası məqsədilə Cinayət Prosessual Məcəlləsinə dəyişiklik edildi və jurnalistin peşə fəaliyyəti kontekstində və ya bu məqsədlə məlumatların toplanması kontekstində ifadə verməkdən və ya məlumat mənbələrini açıqlamaqdan imtina etmək hüququnu nəzərdə tutan yeni maddə daxil edildi.

Bundan əlavə, yeni dəyişiklik jurnalistlərə imkan verir ki, jurnalist materiallarının götürülməsi barədə qərar onların mənbələrin məxfiliyini qorumaq öhdəliyini pozarsa, həmin qərarı yerinə yetirməkdən imtina etsinlər. Jurnalistin bu müddəaya istinad etməsi o halda rədd edilə bilər ki,

***NİD / Voskuil (64752/01)***

*Yekun qərar 22/11/2001*

Yekun qətnamə CM/ResDH(2018)437

işin istintaqını aparan hakim məxfiliyin qorunmasının daha mühüm maraqlara qeyri-mütənasib şəkildə zərər vuracağını hesab etmiş olsun. Bu halda materialların götürülməsi tədbiri əvvəlcə işin istintaqını aparan hakim tərəfindən qiymətləndirilməlidir və təkcə bu qiymətləndirmədən asılı deyildir.

**Kəşfiyyat və təhlükəsizlik xidmətlərinin jurnalist mənbələrini müəyyən etmək üçün xüsusi səlahiyyətlərdən istifadəsinə məhdudiyyətləri nəzərdə tutan yeni qanunvericilik aktı**

Avropa Məhkəməsi iki jurnalisti öz məlumat mənbələrini açıqlamağa məcbur etmək məqsədilə onlara tətbiq edilən müşahidə tədbirləri nəticəsində məlumat almaq və yaymaq azadlığının pozulması haqqında qərar çıxardığına görə, Konvensiyanın pozulması hallarının təkrarlanmasının qarşısını almaq üçün 2018-ci ildə "Kəşfiyyat və təhlükəsizlik xidmətləri haqqında" yeni Qanun qüvvəyə mindi.

Bu Qanunda nəzərdə tutulur ki, əgər kəşfiyyat və təhlükəsizlik xidmətləri birbaşa və ya dolayı yolla jurnalist mənbələrini müəyyən etmək üçün jurnalistlərə qarşı xüsusi səlahiyyətlərdən istifadə etmək niyyətindədirlərsə, əvvəlcə Haaqadakı dairə məhkəməsinin razılığını almalıdırlar.

***NİD / Telegraaf Media Nederland Landelijke Media b.v. və başqaları (39315/06)***

***Yekun qərar 05/01/2018***

**Yekun qətnamə CM/ResDH(2018)437**

**Jurnalist mənbələrinin müdafiəsi ilə bağlı presedent hüququnda dəyişiklik**

Avropa Məhkəməsi cinayət prosesində ifadə vermək və jurnalist mənbələrini açıqlamaq öhdəliyi ilə bağlı qəbul edilmiş məhkəmə qərarının Konvensiyanı pozduğunu müəyyən etdi. Hakimiyyət orqanları bildirdilər ki, 1999-cu il tarixli qanunla Avropa Konvensiyası Norveç qanunvericiliyinə daxil edilib və həmin qanunda Konvensiyanın daxili qanunvericilikdən üstün tutulduğu qeyd edilib. Avropa Məhkəməsinin qərarlarında təsbit olunmuş ümumi prinsiplər məhkəmələr tərəfindən Konvensiyanın şərhi zamanı nəzərə alınan əsas hüquq mənbəyidir. Hakimiyyət orqanları bəyan etmişlər ki, daxili məhkəmələrdəki icraatda eyni və ya oxşar məsələlər yarandıqda, məhkəmələr bu Məhkəmənin qərarında müəyyən edilmiş ümumi prinsipləri tətbiq edəcəklər.

2015-ci il tarixli qərarında Ali Məhkəmə hətta Avropa Məhkəməsinin yekun qərarından əvvəl də Məhkəmənin 10-cu maddə üzrə məhkəmə təcrübəsinə əsaslanıb. Bu iş həm də jurnalist mənbələrinin müdafiəsi ilə bağlı idi. Ali Məhkəmə öz qərarında müəyyən etdi ki, Cinayət Prosessual Qanunu jurnalist mənbələrinin "demək olar ki, mütləq" müdafiəsini nəzərdə tutur.

***NOR / Becker (21272/12)***

***Yekun qərar 22/02/2013***

**Yekun qətnamə CM/ResDH(2018)366**

# 4. MEDİA PLÜRALİZMİ VƏ YAYIM LİSENZİYALARI (RADİO, TV)

**“Radio və televiziya yayımı haqqında” Qanuna dəyişiklik**

*ERM / Meltex və Mesrop Movsesyan (32283/04)*

*Yekun qərar 17/09/2008*

Yekun qətnamə CM/ResDH(2011)39

Milli Televiziya və Radioyayım Komissiyasının (MTRK) ərizəçi şirkətə 2002-2003-cü illər arasında yayım lisenziyası verməkdən imtinası səbəbindən ərizəçi şirkətin ifadə azadlığının pozulduğu barədə Məhkəmənin qərarından sonra 2010-cu ildə “Yayım haqqında” Qanuna dəyişiklik qəbul edildi. Bu qanuna əsasən Milli Televiziya və Radio Komissiyasının (MTRK) qərarları onun üzvlərinin səsverməsinin nəticələri əsasında qəbul edilir və bu qərarlar lazımi qaydada əsaslandırılmalı və izah olunmalıdır. Hakimiyyət orqanları MTRK-nın istənilən qərarının Avropa Konvensiyasına və Avropa Məhkəməsinin presedent hüququna uyğun olaraq qəbul ediləcəyini öhdələrinə götürmüşlər.

Bundan əlavə, 2010-cu ilin iyul ayında 25 milli və yerli tezlikdə rəqəmsal yayım üçün tender elan edildi. Ərizəçi şirkət bir tezlik almaq üçün bu tenderdə iştirak etdi və qanunvericiliyin tələblərinə uyğun olaraq öz təklifini verdi. Tenderin nəticələri 2010-cu ilin dekabrında elan edildi. Ərizəçi şirkət MTRK-dan əsaslandırılmış qərar aldı və müsabiqənin nəticələrindən daxili məhkəmələrə şikayət etmək imkanına malik oldu.

---

**“Kabel və peyk yayımı haqqında” Qanunun qəbulu**

*AVS / Informationsverein Lentia və başqaları (13914/88)*

*Yekun qərar 24/11/1993*

Yekun qətnamə CM/ResDH(98)142

1997-ci ildə Avropa Məhkəməsinin radio və televiziya stansiyalarını işlətmək üçün lisenziyaların əlçatan olmadığı barədə qərarından sonra özəl yayımın lisenziyalaşdırılması Regional Radio və Kabel Yayımı Orqanına həvalə edildi. Bu orqan regional yayımların əyalət əhalisinin ən azı 70%-i tərəfindən qəbul edilməsini təmin etməlidir. Regional və yerli radio verilişlərinin məzmunu obyektivlik və fikir müxtəlifliyi prinsiplərinə, başqalarının fundamental hüquqlarına hörmət edilməsi tələbinə uyğun olmalı, irqi, dini, etnik mənşəyə və milli mənsubiyyətə görə nifrəti təşviq etməməlidir.

Bundan əlavə, 1997-ci ildə “Kabel və peyk yayımı haqqında” Qanun qəbul edildi. Bu qanuna əsasən, peyk yayımı həm radio, həm də kabel yayımı üzrə səlahiyyətli regional orqanın icazəsi ilə həyata keçirilə bilər. Lisenziyalar rəsmi tələblərə cavab verən bütün ərizəçilərə verilir. Verilişlər əhatə olunan ərazinin ictimai, mədəni və iqtisadi həyatını adekvat şəkildə təqdim etməlidir.

“Regional yayım haqqında” Qanun və “Kabel və peyk yayımı haqqında” Qanun əsasında qəbul edilən qərarlar məhkəmə yoxlamasına məruz qalır.

---

**Qanunvericilikdə lisenziyaların verilməsi və ya verilməsindən imtina edilməsi barədə əsaslandırılmış qərarlara və məhkəmə nəzarətinə dair qaydaları müəyyən edən dəyişiklik**

*BOL / Glas Nadezhda EOOD və Anatoliy Elenkov (14134/02)*

*Yekun qərar 11/01/2008*

Yayım lisenziyasının verilməsindən əsassız imtina ilə və imtina qərarına məhkəmə tərəfindən lazımi qaydada baxılması imkanının olmaması ilə əlaqədar olan bu işdəki faktlar baş verdikdən sonra 2001-ci ildən etibarən hakimiyyət orqanları yayım lisenziyaları sahəsində qanunvericilik dəyişiklikləri haqqında və radio və televiziya fəaliyyətini tənzimləyən Elektron Media Şurasının (EMŞ) yaradıldığı barədə məlumat verdilər. Qanun analoq radio və televiziya yayımı üçün

lisenziyaların verilməsindən ötrü tender prosedurunu və rəqəmsal yerüstü radio və televiziya yayımı üçün lisenziya ərizəsi verilməsi prosedurunu nəzərdə tutur.

Bu prosedurlardan birincisi üçün EMŞ qərarın əsaslandırılmasını təmin etməklə, təqdim olunan sənədlər, qiymətləndirmə meyarları və rəqabət tələblərinə uyğunluğun kompleks qiymətləndirilməsi əsasında hansı ərizəçiyə lisenziyanın veriləcəyi barədə qərar qəbul edir. Sayı məhdudlaşdırılmayan rəqəmsal radio və ya televiziya lisenziyalarına gəlincə, lisenziyanın verilməsi haqqında qərar məlumatları almaq və yaymaq hüququnun təmin edilməsi və media müxtəlifliyinə, plüralizmə və milli identikliyin qorunmasına şərait yaradılması meyarlarına əsaslanır.

İnzibati ədliyyə sistemi çərçivəsində EMŞ-nin qərarlarının etibarlılığı və əsaslandırılması, o cümlədən bu orqanın səlahiyyətləri, lisenziyanın forması, verilməsi qaydası, faktoloji və hüquqi əsasları, prosessual qaydalara uyğunluğu və milli və Avropa İttifaqı qanunvericiliyinə uyğunluğu tam yoxlanılır.

**Yekun qətnamə CM/ResDH(2019)335**

---

**Rəqəmsal televiziya və onun televiziya yayımı sektorunda inhisarçılığın azaldılmasına töhfəsi**

Məhkəmə televiziya yayımı sektorunda inhisarçılıq problemini aradan qaldırmağa və mediada effektiv plüralizmi təmin etməyə yönələn qanunvericilik bazasındakı çatışmazlıqlar səbəbindən şirkətin audiovizual sektorda fəaliyyət göstərməsinin mümkünsüzlüyü (1999-2009-cu illər arasında) məsələsində 10-cu maddənin pozulduğunu müəyyən etdi.

Birincisi, hakimiyyət orqanları qeyd etdilər ki, sözügedən şirkət 2009-cu ildən bəri öz tezliklərindən istifadə edə və kanalının yayımını ötürə bilir. Bundan başqa, çoxsaylı əlavə kanallar üçün əlverişli keçid rejimi müəyyən edən qanunvericilik bazası 2012-ci ildə rəqəmsal televiziyaya keçiddən sonra artıq tətbiq olunmur. Rəqəmsal televiziya audiovizual bazarı dəyişdirərək çoxlu sayda operatorlara qapı açmışdır.

Bundan əlavə, müstəqil idarəetmə orqanı olan Rabitəni Tənzimləmə Orqanı (AGCOM) informasiya plüralizmi və azad rəqabət hüququnu təmin etməklə yanaşı, audiovizual medianı tənzimləmək, fəaliyyətinə nəzarət etmək və sanksiyalar tətbiq etmək səlahiyyətlərinə də malikdir. 2014-cü ildən etibarən yeni tənzimləyici normativ akt yayım şirkətlərinin lisenziyalaşdırılması, onlar üzərində mülkiyyət hüququnun ötürülməsi və bölgüsü üsullarını müəyyən edir.

***İTA / Centro Europa 7 S.R.L. və Di Stefano (38433/09)***

***Yekun qərar 07/06/2012***

**Yekun qətnamə CM/ResDH(2017)104**

---

# 5. KOMMERSİYA VƏ BƏDİİ İFADƏ AZADLIĞI

**Dini simvollardan istifadə edilən reklamın məhdudlaşdırılmasını tənzimləyən qanunvericiliyə dəyişiklik**

Hakimiyyət orqanları məlumat veriblər ki, dini simvollardan istifadə edilən reklamlarda ifadə azadlığının qeyri-mütənasib məhdudlaşdırılmasının nəticələrini aradan qaldırmaq məqsədi ilə və Avropa Məhkəməsinin qərarına uyğun olaraq, ərizəçi şirkətin reklamlarına icazə verilib və bu, dizaynerlərin hazırladığı geyim dəstlərini təbliğ etmək üçün istifadə olunub.

Bundan əlavə, 2013-cü ildə "Reklam haqqında" Qanuna dəyişiklik edilib və bununla da "ictimai mənəviyyat" meyarı götürülüb və reklamların yalnız dini icmaların dini simvollarına hörmətsizlik ifadə edildiyi halda qadağan oluna biləcəyi müəyyən edilib.

***LİT / Sekmadienis Ltd.* *(69317/14)***

***Yekun qərar 30/04/2018***

**Yekun qətnamə CM/ResDH(2019)3**

---

**Filmlərin və teatr tamaşalarının nümayişi üçün qaydaları müəyyən edən yeni qanunvericilik**

Avropa Məhkəməsinin qərarından sonra hakimiyyət orqanları bildirdilər ki, öncə nümayişi qadağan edilmiş tamaşa nəhayət 2018-ci ilin sentyabrında nümayiş etdirilə bilər.

Bundan əlavə, 2015-ci il tarixli "Film və tamaşa haqqında" Qanuna dəyişiklik edilib və tam qadağanın tətbiqi artıq mümkün deyil və teatr tamaşaları Teatrların Rəhbər Şurasının qərarı əsasında yaş dərəcələrinə görə təsnif edilir. Şura dram əsərinin və ya digər teatr tamaşasının nümayişindən inciyən və ya özünü təhqir olunmuş sayan hər hansı ictimaiyyət üzvünün şikayətlərini qəbul etmək səlahiyyətinə malikdir. O, müraciətləri rədd etmək barədə qərar çıxara; alternativ yaş təsnifatını tövsiyə edə; və ya məzmunla bağlı bildirişlərin tərtib edilməsini və ictimaiyyətə çatdırılmasını tövsiyə edə bilər. Əgər maraqlı tərəf Şuranın qərarından narazı qalarsa, həmin qərara etiraz etmək üçün Mülki işlər üzrə məhkəmə kollegiyasında iş qaldıra bilər.

***MAL / Unifaun Theatre Productions Limited və başqaları (37326/13)***

***Yekun qərar 15/08/2018***

**Fəaliyyət planı**

İcra vəziyyəti: icra başa çatmayıb

---

# 6. SEÇKİ MƏQSƏDLƏRİ ÜÇÜN MƏLUMATLARIN YAYILMASI

**Kiçik siyasi partiyaların məlumatlarının yayılması və yeni televiziya kanalına çıxış imkanlarının yaxşılaşdırılması**

*NOR / TV Vest As və Rogaland Pensjonistparti (21132/05)*

*Yekun qərar 11/03/2009*

Fəaliyyət hesabatı

Yekun qətnamə CM/ResDH(2011)234

Avropa Məhkəməsi müəyyən etdi ki, teleyayım şirkəti (TV Vest As), habelə pensiyaçılar üçün siyasi partiya olan Pensiyaçıların Siyasi Partiyası (*Roqaland Pensiyaçılar Partiyası*) siyasi təşviqatın yayımını qadağan edən qanunvericiliyi pozduqlarına görə Media üzrə Milli Orqan tərəfindən cərimələnərkən ifadə azadlığının pozulmasına məruz qalıblar. Televiziyada ödənişli təşviqat kiçik partiyanın mesajını ictimaiyyətə çatdırmağın yeganə yolu idi.

2009-cu ildə Məhkəmənin qərarından sonra hakimiyyət orqanları Media üzrə Milli Orqan tərəfindən təyin edilmiş cəriməni ləğv etdilər. Bundan əlavə, 2009-cu ildə qanunvericiliyə dəyişikliklər qəbul edildi ki, həmin dəyişikliklər seçkilərin geniş və balanslaşdırılmış şəkildə işıqlandırılmasının və kiçik siyasi partiyaların da seçki təşviqatının işıqlandırılmasının təmin edilməsini milli televiziya stansiyasından (MTS) tələb edir. Artıq bu partiyaların yeni "*Frikanalen*" telekanalına çıxışı var. Beləliklə, hakimiyyət orqanları 2009-cu ilin sentyabrında keçirilən parlament seçkilərində bu işdə ərizəçi olan siyasi partiyanın və digər analoji siyasi partiyaların faktiki olaraq MTS və "*Frikanalen*"in seçki təşviqatı proqramına daxil edildiyini qeyd etmişlər.

---

**Seçki dövründə nəşr və təşviqatla bağlı qaydaların təkmilləşdirilməsi və həbs cəzası əvəzinə inzibati cərimələrin müəyyən edilməsi**

*TÜR / Erdoğan Gökçe (31736/04)*

*Yekun qərar 14/01/2015*

Yekun qətnamə CM/ResDH(2017)92

Avropa Məhkəməsi bələdiyyə seçkilərində namizədin seçki müddətindən əvvəl press-reliz yaymasına görə cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar olaraq ifadə azadlığının pozulması ilə bağlı qərar çıxardı. Nəticədə hakimiyyət orqanları həmin namizədin dosyesindən məhkumluq haqqında qeydin cinayət məhkəməsi tərəfindən silindiyini bildirdilər.

Pozuntu "Seçkiləri tənzimləyən əsas müddəalar və seçicilərin qeydiyyatı haqqında" Qanunun seçkilərə on gün qalmış namizədlərin təşviqat aparmasını qadağan edən müddəalarının tətbiqi nəticəsində baş vermişdi. Hakimiyyət orqanları qeyd etdilər ki, bu iş üzrə faktların baş verməsindən sonra 2008-ci ildə bu qanuna dəyişiklik edilib və seçki qaydalarına riayət etməməyə görə sanksiyalar artıq həbs cəzalarını deyil, yalnız inzibati cərimələri özündə ehtiva edə bilər. 2010-cu ildə edilən dəyişiklik seçki kampaniyasının başlanması və ya dayandırılması üçün heç bir vaxt məhdudiyyətinin olmadığını və namizədlərin televiziya, internet və ya mətbuat vasitəsilə öz seçki təşviqatını apara biləcəyini müəyyən edir.

---

**Kommunikasiya və seçki təşviqatı xərclərinin məhdudlaşdırılması ilə bağlı qanunun qəbulu**

*BK. / Bowman (24839/94)*

*Yekun qərar 19/02/1998*

Yekun qətnamə CM/ResDH(2007)14

Avropa Məhkəməsi 1983-cü il tarixli qanunda nəzərdə tutulan qanun pozuntusu ilə əlaqədar olaraq 10-cu maddənin pozulduğu qənaətinə gəldi, belə ki, bu qanuna əsasən, səlahiyyəti olmayan şəxsin seçki zamanı namizədin seçilməsini dəstəkləmək və ya təmin etmək məqsədilə seçkiqabağı dövrdə seçicilərə məlumat vermək üçün beş funt sterlinqdən (GBP) çox pul xərcləməsi qadağan edilirdi. Beləliklə, maksimum xərcin məbləği o qədər az idi ki, bu, ərizəçi tərəfindən məlumatların dərc edilməsinə maneə yaradırdı.

---

Hakimiyyət orqanları “Neil Komitəsi”ndən (müstəqil orqan) Məhkəmənin qərarının nəticələrini araşdırmağı və ümumi tədbirləri nəzərdən keçirməyi xahiş etdilər. Tövsiyələr 2000-ci ilin dekabrında siyasi partiyaların maliyyələşdirilməsi haqqında yeni qanunun qəbul edilməsinə gətirib çıxardı və bu qanun 2001-ci ildə qüvvəyə mindi. Bu qanunda Avropa Məhkəməsinin parlament seçkilərində namizəd üçün çox aşağı hesab etdiyi xərclərin limiti 5 funt sterlinqdən 500-ə, yerli seçkilərdə namizəd üçün isə 50 funt sterlinqə qaldırıldı.

# 7. DİGƏR ŞƏXSLƏRİN NÜFUZUNUN VƏ HÜQUQLARININ MÜDAFİƏSİ – QANUNUN VƏ SANKSİYALARIN TƏTBİQİNDƏ MÜTƏNASİBLİK

## 7.1 Digər şəxslərin nüfuzuna zərər yetirilməsinə və hüquqlarının pozulmasına görə cinayət prosesi

**Təhqirin həbslə nəticələnə bilməyəcəyini nəzərdə tutan qanunvericilik dəyişikliyi**

Şəxsin yüksək vəzifəli məmuru təhqir etdiyinə görə cərimələyə və töhmətə məruz qalması nəticəsində Avropa Məhkəməsi Konvensiyanın 10-cu maddəsinin pozulduğunu müəyyən etdi. Hakimiyyət orqanları bildirdilər ki, mənfi nəticələrin aradan qaldırılması üçün töhmət qanunla müəyyən edilmiş müddətin bitməsi səbəbindən tətbiq edilməyib. Bundan başqa, Avropa Məhkəməsinin qərarından sonra 2007-ci ildə Ali Kassasiya Məhkəməsi cinayət işinin yenidən başlanmasını təmin etdi, hökm ləğv edildi və bəraət hökmü çıxarıldı. O, qərarını Avropa Məhkəməsinin gəldiyi nəticələrlə əsaslandırdı.

Bundan başqa, 2000-ci ildə Cinayət Məcəlləsinə edilən dəyişikliklərdən sonra təhqirə görə artıq azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmur. Bundan əlavə, bu sahədə presedent hüququ Konvensiyanın və Avropa Məhkəməsinin presedent hüququnun daha yaxşı nəzərə alınması istiqamətində daim inkişaf etdirilir.

*BOL / Raichinov (47579/99)*

*Yekun qərar 20/07/2006*

Yekun qətnamə CM/ResDH(2011)5

---

**İfadə azadlığı ilə şərəfin qorunması hüququnu balanslaşdırmağa yönələn presedent hüququ**

Avropa Məhkəməsi krala qarşı ciddi böhtana görə bir il həbs cəzası təyin edilməsinin 10-cu maddəni pozduğunu müəyyən etdi. Hakimiyyət orqanları qeyd etdilər ki, ərizəçi azadlıqdan məhrum etmə cəzasını çəkməyib, 2006-cı il tarixli məhkəmə qərarı ilə hökmün icrası dayandırılıb və məhkumluq haqqında qeyd ərizəçinin cinayət dosyesindən silinib.

Ölkədaxili presedent hüququna gəlincə, 2015-ci ildə Konstitusiya Məhkəməsi müəyyən etdi ki, Cinayət Məcəlləsinin təhqir və böhtana aid maddəsi Avropa Məhkəməsinin presedent hüququna uyğun tətbiq edilməlidir. Məhkəmə ifadə azadlığı hüququ ilə şərəfin qorunması hüququ arasında düzgün balans yaradılmasının zəruriliyini xatırlatdı. Həqiqətən də, şəxsin monarxiyaya və kralın konstitusiya ilə qorunmağa layiq olması məsələsinə qarşı tənqidi düşüncəsini ifadə etdiyini, yoxsa əksinə, taxt-taca və monarxa qarşı zorakılığı və ya nifrəti təbliğ edən hərəkətə yol verdiyini müəyyən etmək üçün ifadə azadlığının hüdudları adekvat şəkildə qiymətləndirilməlidir.

*İSP / Otegi Mondragon (2034/07)*

*Yekun qərar 15/09/2011*

Yekun qətnamə CM/ResDH(2017)251

---

**Təhqir və böhtana aid işlərdə cinayət qanunvericiliyinin tətbiqinin hüdudları və mütənasibliyi ilə bağlı presedent hüququnun təkmilləşdirilməsi**

Avropa Məhkəməsinin cərimənin ödənilmədiyi təqdirdə təyin oluna biləcək həbs cəzası ilə bağlı çıxardığı qərarlara cavab olaraq bildirildi ki, təyin edilmiş həbs tədbirləri heç vaxt icra edilmədiyi üçün azadlıqdan məhrum etmə baş verməyib. Ərizəçilərin məhkumluğu barədə qeyd artıq onların cinayət dosyesində yoxdur və hökmə yenidən baxılması üçün verilmiş ərizə qəbul edilib.

*İSP / Rodriguez Ravelo (48074/10)*

*Yekun qərar 12/04/2016*

Fəaliyyət hesabatı

İcra vəziyyəti: icra başa çatmayıb

Bundan başqa, hakimiyyət orqanları qeyd etdilər ki, Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin 2015 və 2016-cı illərdəki ölkədaxili presedent hüququ ifadə azadlığı hüququnun müdafiəsi ilə bağlı Avropa Məhkəməsinin qəbul etdiyi prinsipləri, arqumentləri və meyarları özündə birləşdirir. Beləliklə, Ali Məhkəmə hesab edir ki, həqiqəti əks etdirən məlumat, fikir, ideya və mülahizələri sərbəst şəkildə ifadə etmək və yaymaq hüququnun qanuni şəkildə həyata keçirilməsindən söhbət gedirsə, burada nə təhqir, nə də böhtan var. Bu Məhkəmə belə nəticəyə gəldi ki, bu sahədə cinayət qanunu həddən artıq sərt alətdir və digər hüquqi müdafiə vasitələri daha məqsədəuyğun ola bilər.

**Böhtan və ya təhqir sayılmayan ifadələrlə bağlı qanunvericilik islahatı**

*FİN / Nikula (31611/96)*

***Yekun qərar 21/06/2002***

**Yekun qətnamə ResDH(2006)51**

Avropa Məhkəməsi qərara aldı ki, ərizəçinin vəkil kimi çıxışı zamanı söylədiyi fikirlər böhtan sayıldığına görə cinayət işində qeyri-mütənasib hökmün çıxarılması nəticəsində 10-cu maddə pozulub. Avropa Məhkəməsinin qərarının nəticəsi olaraq, ərizəçinin cinayət dosyesinə məhkumluq haqqında heç bir qeyd daxil edilməyib.

Bundan başqa, bu işə əsas verən hadisələrdən və Avropa Məhkəməsi tərəfindən pozuntu aşkar edildikdən sonra gələcəkdə oxşar pozuntuların qarşısını almaq üçün 2000-ci ildə, xüsusən də 2000-ci il tarixli qanun əsasında Cinayət Məcəlləsində islahat aparılmaqla qanunvericilik tədbirləri görülmüşdür. Qanunvericiliyə edilən dəyişikliyə əsasən, şəxsin siyasi və ya peşə fəaliyyətini, ictimai funksiyalarını və ya səlahiyyətlərini, elmi və ya bədii fəaliyyətini həyata keçirərkən davranışının tənqid edilməsi yol verilə bilən tənqid həddini açıq-aşkar aşmadığı təqdirdə təhqir hesab edilmir.

**Dövlət başçısının təhqir edilməsini cinayət kimi müəyyən edən müddəanın ləğvi**

*FRA / Eon (26118/10)*

***Yekun qərar 14/06/2013***

**Yekun qətnamə CM/ResDH(2014)10**

Avropa Məhkəməsi dövlət başçısını təhqir etdiyinə görə ərizəçiyə cərimə təyin edilməsini, cəzanın icrası təxirə salınsa da, 10-cu maddənin pozuntusu kimi müəyyən etdi. Hakimiyyət orqanları bildirdilər ki, analoji pozuntuların qarşısını almaq üçün 2013-cü il tarixli qanunun müddəalarının bu sahədə tətbiq edilən Aİ qanunvericiliyinin ədalət mühakiməsi sahəsinə aid müddəalarına uyğunlaşdırılması nəzərdə tutulub, 1881-ci il tarixli qanununun dövlət başçısını təhqir etmə cinayəti ilə bağlı maddəsi isə ləğv edilib.

**Mülki iddialar barədə məlumatların dərc edilməsi ilə bağlı hüquqpozmalara dair presedent hüququnda dəyişiklik edilməsi**

*FRA / Du Roy və Malaurie (34000/96)*

***Yekun qərar 03/01/2001***

**Yekun qətnamə CM/ResDH(2008)9**

“Mülki iddialar barədə məlumatların dərc edilməsi” ilə bağlı cinayət ittihamı üzrə məhkum edilmə ilə əlaqədar Avropa Məhkəməsinin qərarından sonra artıq ərizəçilərin dosyesində məhkumluq barədə qeyd yoxdur.

Bundan əlavə, 2001-ci ildə iki ardıcıl qərarında Kassasiya Məhkəməsinin cinayət işləri üzə şöbəsi bildirdi ki, 1931-ci il tarixli qanunda nəzərdə tutulmuş ümumi və mütləq qadağa 10-cu maddədə sadalanan qanuni mənafelərin müdafiəsini məhdudlaşdırır və bu maddəyə zidd olmaqla cinayət işi üzrə ittiham hökmü çıxarılması üçün əsas kimi istifadə edilə bilməz. Hakimiyyət orqanları iddia edirlər ki, 1931-ci il tarixli qanunun mülki iddialarla bağlı hər hansı məlumatın məhkəmə qərarına qədər dərcini qadağan edən müddəaları artıq ölkədaxili qanunvericilikdə qüvvədən düşüb.

**Sanksiyaların mütənasibliyi ilə bağlı qərarda Avropa Məhkəməsinin ifadə azadlığı anlayışlarını və meyarlarını özündə ehtiva edən presedent hüququnun təkmilləşdirilməsi**

*FRA / Jean-Jacques Morel işlər qrupu (25689/10+)*

***Yekun qərar 10/01/2014***

Böhtanla bağlı cinayət işi üzrə ittiham hökmlərindən sonra pozuntunun mənfi nəticələrini aradan qaldırmaq üçün Avropa Məhkəməsinin qərarları əsasında iki işə yenidən baxılmış və Kassasiya Məhkəməsi tərəfindən hökmlər ləğv edilmişdir. Digər üç işdə isə, ərizəçilər cinayət işinin yenidən başladılmasını istəməsələr də, özlərinin cinayət dosyesindəki qeydlərdə düzəliş edilməsi üçün müraciət etmək imkanına malik olmuşlar.

Hakimiyyət orqanları hakimlər üçün ifadə azadlığı mövzusunda çoxsaylı təlim kursları təşkil etmişlər. Kassasiya Məhkəməsinin son dövrə aid presedent hüququndan görünür ki, sanksiyaların ifadə edilmiş fikirlərə mütənasibliyini qiymətləndirmək üçün Avropa Məhkəməsinin ifadə azadlığına dair presedent hüququnun meyarları daha aydın şəkildə mənimsənilib. Belə ki, 2015, 2016 və 2017-ci illərdə çıxarılmış qərarlarda Kassasiya Məhkəməsi "faktlara dair açıqlamalar" və "qiymətləndirici mülahizələr" arasındakı fərqə və "ümumi maraq doğuran məsələlərin müzakirəsi" anlayışına istinad edir. Belə ki, o, bu kontekstdə mübahisələndirilən fikirlərə daha aydın nəzər salaraq onların ümumi maraq doğuran məsələlərə aid müzakirələrin bir hissəsi olub-olmadığını müəyyən etmək üçün Avropa Məhkəməsinin istifadə etdiyi əsas meyarlardan birini qərarlarının əsaslandırıcı hissəsinə daxil etmişdir. Kassasiya Məhkəməsi ifadə edilmiş bu fikirləri nəzərdən keçirmiş, onların kifayət qədər faktoloji əsasa malik olub-olmadığını və ifadə azadlığının yol verilən hədlərini aşıb-aşmadığını yoxlamışdır. Nəhayət, o, hesab etmişdir ki, 10-cu maddənin işığında hökmün mütənasibliyini yoxlamaq birinci instansiya məhkəməsi hakiminin səlahiyyətindədir.

Yekun qətnamə CM/ResDH(2019)88

---

**On ildən artıq keçmiş dövrə aid faktlarla əlaqədar böhtana görə məhkəməyə verilmiş şəxsin məsuliyyətdən azad edilməsini qadağan edən hüquq normasının konstitusiyaya zidd elan edilməsi**

*FRA / Mamère (12697/03)*

*Yekun qərar 07/02/2007*

Yekun qətnamə CM/ResDH(2011)104

Avropa Məhkəməsi müəyyən etdi ki, böhtana görə cərimə və dəymiş ziyanın ödənilməsi ilə bağlı cinayət işi üzrə hökm Konvensiyaya ziddir. 2011-ci ildə hakimiyyət orqanları bildirdilər ki, Konstitusiya Şurası mətbuat azadlığına dair 1881-ci il tarixli qanunvericilik aktında yer alan, böhtana görə cinayət təqibinə məruz qalan şəxsin on ildən artıq keçmiş dövrə aid faktlara istinad etdiyi hallarda məsuliyyətdən azad edilməsini qadağan edən müddəanı Konstitusiyaya zidd elan edib. Konstitusiya Şurası qeyd edib ki, həmin müddəanı konstitusiyaya zidd elan edən qərar dərc edildiyi gündə barəsində yekun qərar çıxarılmamış böhtanla bağlı bütün iddialara şamil edilir.

---

**İctimai xadimlərə qarşı tənqidin yol verilə bilən səviyyəsinə dair presedent hüququnun inkişafı**

*SER / Lepojić və Filipović (13909/05)*

*Yekun qərar 31/03/2008*

Yekun qətnamə CM/ResDH(2009)135

Avropa Məhkəməsi böhtan və ya təhqir ittihamı ilə cinayət prosesində məhkum olunmuş, sonra isə mülki prosesdə eyni iddiaçıya – merə (o həm də dövlət şirkətinin direktoru idi) dəymiş zərərə görə əhəmiyyətli məbləğdə kompensasiya ödəməsi barədə qərar çıxarılmış ərizəçilərin (yerli siyasətçilərin) ifadə azadlığına əsassız müdaxilə baş verdiyini müəyyən etdi.

2008-ci ildə Ali Məhkəmə Avropa Məhkəməsinin presedent hüququnun daxili qanunvericilikdə birbaşa tətbiqinə icazə verən hüquqi rəy qəbul etdi. Beləliklə, ictimai xadimlərə qarşı məqbul tənqidin dərəcəsi adi fərdlərə nisbətən daha genişdir. Bu rəy ölkənin bütün aşağı məhkəmələri üçün hüquqi qüvvəyə malikdir. Hakimiyyət orqanları həmçinin 2008-ci ildə birinci instansiya məhkəməsinin çıxardığı qərar haqqında məlumat təqdim ediblər. Qərarda Avropa Konvensiyasının 10-cu maddəsinə istinad edilir və bildirilir ki, dövlət qulluğunda olanlar tənqidi, hətta o, ümumi ədəb-ərkan hüdudlarını aşsa belə, qəbul etməlidirlər.

---

## 7.2 Təhqir və böhtanın kriminallaşdırılması

**Böhtana görə həbs cəzalarının dekriminallaşdırılması**

*CRO / Slava Jurišić (79584/12)*

*Yekun qərar 08/02/2018*

Böhtana görə cinayət məsuliyyətinə cəlb edilmə ilə əlaqədar olaraq 10-cu maddənin pozulduğu barədə Avropa Məhkəməsinin qənaətinə cavab olaraq, hakimiyyət orqanları qeyd etdilər ki, pozuntuya son qoymaq üçün artıq ərizəçinin cinayət dosyesindən məhkumluq barədə qeyd silinib. Bundan başqa, işin faktları nəzərə alınaraq 2013-cü ildə yeni Cinayət Məcəlləsi qəbul edilib. Bu qanunla böhtana görə azadlıqdan məhrum etmə cəzası ləğv edilib

və buna görə də böhtanda təqsirli bilinən şəxs yalnız cərimə ilə cəzalandırıla bilər. Hakimiyyət orqanları bu qanunvericilik dəyişikliyinin Avropa Şurası Parlament Assambleyasının 1577(2007) saylı qətnaməsinə də uyğun olduğunu vurğulayıblar.

Yekun qətnamə CM/ResDH(2018)377

**Böhtanın dekriminallaşdırılması və mülki hüquqi məsuliyyətin müəyyən edilməsi**

*MAK / Makraduli (64659/11)*

*Yekun qərar 19/10/2018*

Yekun qətnamə CM/ResDH(2019)190

Yüksək vəzifəli dövlət məmuruna və siyasətçiyə qarşı böhtanla bağlı cinayət işi üzrə məhkum edilmə barədə qeyd Avropa Məhkəməsinin qərarından sonra ərizəçinin cinayət dosyesindən çıxarıldı.

2012-ci ildə "Təhqir və böhtana görə mülki hüquqi məsuliyyət haqqında" Qanun qəbul edildi və bununla da böhtan və təhqirin kriminallaşdırılması ləğv edildi. Böhtanın dekriminallaşdırılması Avropa Şurasının sənədlərinə, o cümlədən Parlament Assambleyasının 1577(2007) saylı qətnaməsinə uyğun olaraq həyata keçirildi. Qanun təhqir və ya böhtan nəticəsində fiziki və hüquqi şəxslərin şərəf və ləyaqətinə vurulan zərərə görə mülki məsuliyyət barəsindədir. O, ifadə azadlığına hər hansı məhdudiyyətin Avropa Konvensiyasına və Avropa Məhkəməsinin presedent hüququna uyğun olmasını nəzərdə tutur. Böhtan artıq cinayət əməli olmadığına görə, hakimiyyət orqanları hesab edirlər ki, bu tədbir analoji pozuntuların qarşısını ala bilər.

**Böhtan və təhqirin dekriminallaşdırılması**

*MON / Šabanović (5995/06)*

*Yekun qərar 31/08/2011*

Yekun qətnamə CM/ResDH(2016)44

İçməli suyun çirklənməsi ilə bağlı iddialara verdiyi cavabla əlaqədar olaraq dövlət məmurunun böhtana görə şərti həbs cəzası almasına münasibətdə Avropa Məhkəməsinin gəldiyi qənaətə cavab olaraq, 2012-ci ildə məhkəmə icraatı bərpa edildi və bəraət hökmü çıxarıldı. Sanksiya barədə qeyd ərizəçinin cinayət dosyesindən çıxarıldı.

Bundan başqa, analoji pozuntuların qarşısını almaq üçün 2011-ci ildə Cinayət Məcəlləsinə əlavə və dəyişikliklər edildi. Bu dəyişikliklərlə böhtan və təhqir cinayəti anlayışı ləğv edildi. Onların dekriminallaşdırılması Avropa sənədlərinin, o cümlədən Avropa Şurası Parlament Assambleyasının 1577(2007) saylı qətnaməsinin müddəalarına uyğun olaraq həyata keçirildi.

**Təhqir və böhtanın dekriminallaşdırılması**

*RUM / Dalban (28114/95)*

*Yekun qərar 28/09/1999*

Yekun qətnamə CM/ResDH(2011)73

Vəzifələrini yerinə yetirərkən atdıqları addımlara görə hakimiyyət orqanlarını tənqid edən məqalələr dərc etdiyi üçün ərizəçinin cinayət işi üzrə məhkum edilməsinə münasibətdə Məhkəmənin qərarından sonra 2002-ci il tarixli "Fövqəladə hallara dair Qaydalar"la və 2005-ci il tarixli Qanunla təhqir və böhtana görə azadlıqdan məhrum etmə cəzaları ləğv edildi.

Sonradan 2006-cı il tarixli Qanunla təhqir və böhtanı dekriminallaşdırıldı. Lakin 2007-ci ilin yanvarında Konstitusiya Məhkəməsi təhqir və böhtanın dekriminallaşdırılmasını konstitusiyaya zidd elan etdi. Konstitusiya Məhkəməsinin qərarı dekriminallaşdırmanın nəticələri ilə bağlı müəyyən hüquqi qeyri-müəyyənlik yaratdı. Bu məsələyə aydınlıq gətirmək üçün Baş prokuror Kassasiya Məhkəməsinə müraciət etdi. 2010-cu ildə çıxardığı qərarda Kassasiya Məhkəməsi təsdiq etdi ki, Konstitusiya Məhkəməsinin qərarına baxmayaraq, təhqir və böhtan artıq cinayət əməli sayılmır. Bu qərar artıq bütün yerli məhkəmələr üçün məcburidir. 2014-cü il tarixli yeni Cinayət Məcəlləsində artıq təhqir və böhtan cinayət hesab edilmir.

**Böhtanın dekriminallaşdırılması**

*UKR / Marchenko (4063/04)*

Avropa Məhkəməsi dövlət qulluqçusunun böhtana görə məhkum edilməsi və rəhbərini mənimsəmədə açıq şəkildə ittiham etdiyinə görə şərti həbs cəza alması ilə bağlı 10-cu maddənin pozulduğunu müəyyən edib. Hakimiyyət orqanları qeyd etdilər ki, 2001-ci il tarixli

Cinayət Məcəlləsi artıq böhtan və təhqiri cinayət əməli kimi təsnif etmir. 2009-cu ildə Ali Məhkəmə böhtan işlərinə mülki icraat çərçivəsində baxılmalı olduğunu nəzərə alaraq, fiziki və ya hüquqi şəxsin şərəf, ləyaqət və nüfuzunun müdafiəsi ilə bağlı məhkəmə təcrübəsində dəyişiklik etmişdir.

*Yekun qərar 19/05/2009*

Yekun qətnamə CM/ResDH(2019)323

## 7.3 Digər şəxslərin nüfuzuna və hüquqlarına zərər yetirilməsinə görə mülki icraat

**İfadə azadlığının qorunmasına yönələn qanunvericilik dəyişiklikləri daha artıq dərəcədə Avropa Konvensiyasına uyğunlaşdırılır**

***GÜR / Gorelishvili (12979/04)***

*Yekun qərar 05/09/2007*

Yekun qətnamə CM/ResDH(2010)164

2002 və 2003-cü illərdə yüksək vəzifəli dövlət məmuruna və tanınmış siyasətçiyə qarşı böhranla bağlı mülki məhkəmə araşdırmaları Məhkəmənin 10-cu maddənin pozulduğunu elan etməsinə səbəb oldu. Hadisələr baş verən zaman qüvvədə olan Mülki Məcəllə faktları ifadə edən fikirlərlə qiymətləndirici mülahizələr arasında fərq qoymadan bunları ümumi şəkildə "məlumat" termini ilə adlandırır və istənilən "məlumatın" həqiqətə uyğunluğunun jurnalist və ya məlumatı çatdıran şəxs tərəfindən sübuta yetirilməsini tələb edirdi. Hazırkı iş üzrə faktların baş verməsindən sonra Mülki Məcəllənin bu hissəsində dəyişiklik edildi və artıq orada cavabdehin çatdırdığı məlumatı sübut etmək öhdəliyi qeyd edilməyib.

Bundan əlavə, bu iş üzrə faktlar baş verdiyi zaman qüvvədə olan "Mətbuat və media haqqında" Qanunu 2004-cü il tarixli "Söz və ifadə azadlığı haqqında" Qanun əvəz etdi. Bu qanunla böhtan "*mahiyyət etibarı ilə yalan faktları özündə ehtiva edən və şəxsə zərər yetirən, onun adına və ya nüfuzuna xələl gətirən bəyanat*" kimi müəyyən edilir. Qanunda daha sonra qeyd edilir ki, hər kəs ifadə azadlığına malikdir ki, bu da fikir azadlığını və siyasi nitq və müzakirə azadlığını özündə ehtiva edir, amma dövlət məmurları istisnadır. Qanun adi şəxsə qarşı böhtanla ictimai xadimə qarşı böhtanı fərqləndirir. Belə ki, ictimai xadimə qarşı böhtan halında jurnalist yalnız faktın yanlış olduğunu bildiyi təqdirdə mülki məsuliyyət daşıyır. Qanunda nəzərdə tutulur ki, heç kəs, əgər böhtan xarakterli bəyanatlarının yayımlandığını və ya yayımlanacağını bilməyibsə ya bilmək imkanında olmayıbsa, böhtana görə məhkum edilə bilməz.

**İfadə azadlığı hüququnu gücləndirmək üçün "Media və böhtan haqqında" Qanunun qəbulu**

***MAL / Falzon (45791/13)***

*Yekun qərar 20/06/2018*

Yekun qətnamə CM/ResDH(2019)122

Parlamenti tənqid edən məqalələrlə əlaqədar olaraq böhtana görə mülki iş üzrə cərimənin təyin edilməsini Avropa Məhkəməsi 10-cu maddənin pozuntusu kimi müəyyən etdi. Analoji pozuntuların qarşısını almaq üçün "Media və böhtan haqqında" 2018-ci il tarixli yeni Qanunla ifadə azadlığı hüququnu gücləndirmək məqsədi ilə o zaman qüvvədə olan qanun ləğv edildi və bu yeni qanunla əvəzləndi. Yeni qanunun qəbuluna qədər qanunvericilikdə "böhtan" termininin anlayışı yox idi. Yeni qanuna əsasən, qanunvericiliyə "böhtan" termininin aşağıdakı anlayışı daxil edildi: "*şəxsin nüfuzuna ciddi zərər yetirən, yalan və ləkələyici məlumatı özündə ehtiva edən fikirlərin bəyan edilməsi*".

Bundan əlavə, böhtanla bağlı cinayət işinə başlamaq artıq mümkün deyil və bu qanun qüvvəyə mindiyi zaman məhkəmədə olan bütün cinayət işlərinə xitam verilməlidir. Beləliklə, böhtanla bağlı iddialar yalnız mülki məhkəmələr qarşısında qaldırıla bilər.

## 8. İFADƏ AZADLIĞI VƏ MİLLİ TƏHLÜKƏSİZLİK, İCTİMAI ASAYİŞ VƏ TERRORİZMLƏ MÜBARİZƏ

**Qanunvericiliyə ictimai asayişi pozan və totalitar sistemlərin qurbanlarının insan ləyaqətini təhqir edən əməllərin cəzalandırılmasına yönələn dəyişiklik edilməsi**

*MAC / Vajnai (33629/06)*

*Yekun qərar 08/10/2008*

Yekun qətnamə CM/ResDH(2019)346

Sol təmayüllü siyasi partiya üzvlərinin dinc və qanuni şəkildə təşkil edilmiş nümayişlər zamanı qırmızı ulduz simvolu taxdıqlarına görə cinayət məsuliyyətinə cəlb olunmasına və simvolların müsadirə edilməsinə münasibətdə Məhkəmənin qərarından sonra Ali Məhkəmədə bu işlər üzrə icraat bərpa olundu və əvvəlki hökmlər ləğv edilərək bəraət hökmləri çıxarıldı. Nəticədə məhkumluq barədə qeydlər cinayət dosyelərindən silindi.

Hadisələr zamanı svastika, SS nişanı, xaç formasında ox, oraq və çəkic simvolu və ya qırmızı ulduzun yayılması və ya açıq istifadəsi Cinayət Məcəlləsində cərimə ilə cəzalandırılan cinayət əməli sayılırdı. 2013-cü ilin fevralında Konstitusiya Məhkəməsi bu müddəanı ləğv etdi və 2013-cü ilin aprelində Cinayət Məcəlləsinə dəyişiklik edildi. Dəyişikliyə əsasən, yuxarıda qeyd olunan simvolların yayılmasının və ya istifadəsinin ictimai asayişi pozmaq və totalitar sistemlərin sağ qalan qurbanlarının insan ləyaqətini və ya ölmüş qurbanların ruhunu təhqir etmək məqsədi daşıdığını güman etməyə əsas verən əlamətlər olmalıdır. Müvafiq olaraq, artıq qırmızı ulduz simvolunun "ümumi şəkildə" "sadəcə nümayişi" cinayət hesab edilmir və qadağa buna şamil olunmur. Beləliklə, açıq-aydın Konvensiyanın 10-cu maddəsi ilə qorunan ifadə azadlığının tətbiq dairəsinə düşən fəaliyyətlər və ideyalar qadağanın əhatə dairəsi xaricindədir.

---

**“Terrorizmlə mübarizə haqqında” Qanunun maddəsinin ləğv edilməsi**

*TÜR / Arslan (23462/94)*

*Yekun qərar 08/07/1999*

Yekun qətnamə CM/ResDH(2006)79

Avropa Məhkəməsi “Terrorizmlə mübarizə haqqında” Qanun əsasında dövlət təhlükəsizliyi məhkəmələri tərəfindən terrorizm təbliğatı sayılan məqalə və kitabların nəşri və ictimaiyyətə ünvanlanmış mesajların hazırlanması ilə bağlı cinayət işləri üzrə hökmləri araşdırdı. Həmin dövrdə qüvvədə olan “Terrorizmlə mübarizə haqqında” Qanunun 8-ci maddəsi yazılı materiallar, kitablar və ya mətbuat vasitəsilə terrorizmin təbliğatının cəzalandırılmasını nəzərdə tuturdu. Avropa Məhkəməsinin qərarı nəticəsində 2003-cü il tarixli 4928 saylı Qanunla “Terrorizmlə mübarizə haqqında” Qanunun 8-ci maddəsi ləğv edildi və nəticədə ərizəçinin cinayət dosyesindən məhkumluq barədə qeyd silindi. 2003-cü il tarixli Qanun daxili qanunvericiliyi Konvensiyanın tələblərinə uyğunlaşdırmaq məqsədi daşıyır.

---

**Cinayətkar dəstənin və ya qanunsuz silahlı təşkilatın fəaliyyətinə köməkliyə aid qanunvericilikdə dəyişiklik**

*TÜR / Emir (10054/03)*

*Yekun qərar 03/08/2007*

Yekun qətnamə CM/ResDH(2009)17

Avropa Məhkəməsi bir jurnalda Türkiyə həbsxanalarına hüquq-mühafizə orqanlarının müdaxilələri ilə bağlı silsilə məqalələr dərc edildiyinə görə “silahlı dəstə və ya təşkilatın fəaliyyətinə köməklik göstərmə” ittihamı ilə keçmiş Cinayət Məcəlləsi əsasında məhkum edilmə nəticəsində 10-cu maddənin pozulduğunu müəyyən etdi.

Avropa Məhkəməsinin qərarından sonra məhkumluq barədə qeyd cinayət dosyesindən silindi. Bundan əlavə, analoji halların qarşısını almaq üçün 2003-cü ildə qəbul edilmiş qanunla Cinayət Məcəlləsində qismən dəyişiklik edilərək “cinayətkar dəstənin və ya qanunsuz silahlı təşkilatın fəaliyyətinə köməklik göstərmə” ifadəsi ləğv edildi. 2005-ci ildə qüvvəyə minmiş yeni Cinayət Prosessual Məcəlləsində bu ifadə yoxdur.

**“Müxtəlif icmalar arasında xoşagəlməz münasibət və ya ədavət” ifadəsinə aydınlıq gətirilərək bunun "qiyam niyyəti" hesab edilmədiyini təsbit edən qanunvericilik dəyişikliyi**

***TÜR / Foka (28940/95)***

***Yekun qərar 26/01/2009***

**Yekun qətnamə CM/ResDH(2015)153**

Hakimiyyət orqanları tərəfindən lent yazılarının, kitabların, dəftərlərin və kartların müsadirə edilməsi ilə bağlı Avropa Məhkəməsinin gəldiyi nəticəyə cavab olaraq, ifadə azadlığının təşviqinə yönələn tədbirlər görüldü. Qərarda göstərilən faktların baş verməsindən sonra 2007-ci ildə Cinayət Məcəlləsinə dəyişiklik edildi və artıq “Müxtəlif icmalar arasında xoşagəlməz münasibət və ya ədavətin” təşviqi “qiyam niyyəti” hesab edilmir.

Beləliklə, icmalar arasında xoşagəlməz münasibəti təbliğ edən sözlərin və ya materialların dərci və ya yayılması artıq cinayət qanununa əsasən cinayət sayılmayacaq. Bu dəyişiklik analoji əsaslara görə materialların və ya əşyaların müsadirə edilməsinin artıq 10-cu maddənin məqsədləri üçün hüquqi əsasa malik olmayacağını təmin edəcək.

# 9. CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ MƏHBUSLARIN MƏLUMAT ƏLDƏ ETMƏSİ VƏ İFADƏ AZADLIĞI

**"Cəzaların icrası haqqında" Qanunda vəsatət və ya şikayətlərin verilməsinə görə məhbuslara intizam sanksiyalarının təyin edilməməsini nəzərdə tutan dəyişiklik edilməsi**

*BOL / Shahanov və Palfreeman (35365/12)*

***Yekun qərar 21/10/2016***

**Yekun qətnamə CM/ResDH(2017)256**

Məhbuslara qarşı tətbiq edilən sanksiyalara və həbsxana əməkdaşlarından şikayətlər verilməsinə cavab olaraq həbsxana rəhbərliyi tərəfindən tətbiq edilən tədbirlərə (müvafiq olaraq, 10 günlük təcrid və 3 aylıq ərzaq bağlamalarından məhrumetmə) münasibətdə Məhkəmənin qərarından sonra hakimiyyət orqanları tədbir gördüklərini bildirdilər. Tətbiq edilən sanksiyalara hadisələrin baş verdiyi vaxt qüvvədə olan qanunla icazə verilirdi və sanksiyalar üçün əsas kimi "*həbsxana əməldaşlarına qarşı böhtan xarakterli ifadələr və ya yalan iddialar*" göstərilirdi.

Cəzaların icrası və məhkəməyəqədər həbs haqqında 2009-cu ildə qəbul edilmiş bu qanuna 2013-cü ildə dəyişiklik edildi. Dəyişiklikdə nəzərdə tutulur ki, məhbuslar vəsatət və ya şikayətlərə görə intizam məsuliyyətinə cəlb olunmamalıdırlar. Hazırda məhbus yoldaşlarına və ya cəzaçəkmə müəssisəsinin əməkdaşlarına qarşı fiziki zor tətbiq etmə və ya zor tətbiqi ilə hədələmə cəzaçəkmə müəssisəsində əvvəlkitək intizam xətası sayılır, lakin intizam sanksiyasının tətbiqi üçün əsas kimi həbsxana əməkdaşlarına və ya digər məhbuslara qarşı böhtan xarakterli ifadələr və ya yalan iddialar qeyd edilmir. Buna görə də, indi intizam sanksiyası yalnız əvvəlki şikayətlərlə əlaqədar olmayan situasiyalarda tətbiq edilə bilər.

**Həbsxanalarda internet saytlarına çıxışı asanlaşdırmaq üçün "Azadlıqdan məhrum etmə haqqında" Qanuna dəyişiklik edilməsi**

*EST / Kalda (17429/10)*

***Yekun qərar 06/06/2016***

**Yekun qətnamə CM/ResDH(2019)109**

2019-cu ildə hakimiyyət orqanları "Azadlıqdan məhrum etmə haqqında" Qanunun qanunvericilik və məhkəmə sənədlərinə həsr olunmuş konkret saytlardan başqa digər internet saytlarına həbsxanada girişi qadağan edən maddəsində dəyişiklik etdilər. Dəyişiklik bu işdə qeyd edilən internet saytlarına, o cümlədən Ədliyyə kanslerinin və Tallinndəki Avropa Şurası ofisinin saytına (*Riigikogu* veb-saytı) məhbusların daxil olmasına imkan verir. Bununla belə, hakimiyyət orqanları məlumat veriblər ki, qadağan olunmuş digər linklərə girişi əngəlləmək üçün saytların tənzimlənməsinə ehtiyac var.

**Həbsxanalarda internet saytlarına girişi asanlaşdırmağa yönələn yeni qanunvericilik**

*LİT / Jankovskis (21575/08)*

***Yekun qərar 17/04/2017***

**Yekun qətnamə CM/ResDH(2019)73**

2014-cü ildə cəzaçəkmə müəssisələrindəki məhbusların internetə məhdud giriş imkanı vasitəsilə bir sıra internet saytlarına daxil olması təmin edildi. Bütün penitensiar müəssisələrdə internetə məhdud giriş imkanının vahid tətbiqini təmin etmək məqsədilə penitensiar xidmət məhbus və məhkumlar üçün internetə məhdud giriş imkanına dair təlimatlar dərc etmişdir. Bu təlimatlarda nəzərdə tutulmuşdur ki, hər bir cəzaçəkmə müəssisəsində internetdən istifadə prosedurunun təsviri, əlçatan veb-saytların siyahısı və internetə məhdud giriş istifadəçilərinin hüquq və vəzifələri əks olunmalıdır. Verilən tövsiyələr nəticəsində həbsxanalarda internetə giriş imkanından istifadə qaydaları qəbul edilib.

2017-ci ildə qəbul edilmiş əmrlə internetə məhdud giriş imkanından istifadə üçün yazılı prosedur təsdiqləndi və orada hamı üçün bərabər giriş şərtlərinin təmin edilməli olduğu qeyd edildi. Beləliklə, internetə daxil olmaq istəyən məhbus və ya məhkum öz bölməsinin rəisinə ərizə ilə müraciət etməlidir. Saxlanılan şəxslərin ən çox müraciət etdikləri internet saytları nəzərə alınaraq, 21 əlavə veb-sayta daxil olmağa icazə verilib. Siyahı tam deyil və məhbuslar digər internet saytlarına giriş üçün müraciət edə bilərlər.

# İŞLƏRİN SİYAHISI

*ERM / Meltex və Mesrop Movsesyan* ............................ 9
*AVS / Informationsverein Lentia və başqaları* ................ 9
*BEL / Ernst və başqaları* ................................................ 7
*BOL / Glas Nadezhda EOOD və Anatoliy Elenkov*............ 9
*BOL / Raichinov*............................................................14
*BOL / Shahanov və Palfreeman* ....................................21
*XOR / Slava Jurišić*.........................................................16
*İSP / Otegi Mondragon*.................................................14
*İSP / Rodriguez Ravelo* .................................................14
*EST / Kalda*...................................................................21
*FİN / Nikula*..................................................................15
*FRA / Du Roy və Malaurie*.............................................15
*FRA / Eon* ....................................................................15
*FRA / Jean-Jacques Morel işlər qrupu* .............................15
*FRA / Mamère*..............................................................16
*GÜR / Gorelishvili*.........................................................18
*MAC / Vajnai*................................................................19
*İTA / Centro Europa 7 S.R.L. və Di Stefano*......................10
*LİT / Jankovskis* ............................................................21
*LİT / Sekmadienis Ltd.*...................................................11
*LÜK / Roemen və Schmit*................................................ 7
*MAK / Makraduli* .........................................................17
*MAL / Falzon*................................................................18
*MAL / Unifaun Theatre Productions Limited və başqaları* 11
*MON / Šabanović*.......................................................... 17
*NİD / Telegraaf Media Nederland Landelijke Media b.v. və başqaları* ............................................................. 8
*NİD / Voskuil* ................................................................ 7
*NOR / Becker*................................................................ 8
*NOR / Tønsbergs Blad AS və Haukom* ............................ 4
*NOR / TV Vest As and Rogaland Pensjonistparti* ...........12
*POL / Wizerkaniuk*........................................................ 4
*POR / Colaço Mestre and Sociedade Independente de Comunicação*............................................................ 5
*POR / Medipress-Sociedade Jornalística e Editorial, Lda* . 4
*RUM / Dalban* ..............................................................17
*SER / Lepojić və Filipović*............................................... 16
*SVN / Mladina d.d. Ljubljana* ......................................... 5
*TÜR / Arslan*.................................................................19
*TÜR / Emir*....................................................................19
*TÜR / Erdoğan Gökçe*..................................................... 12
*TÜR / Foka* ...................................................................20
*TÜR / Saygılı və Bilgiç* .................................................... 5
*BK. / Bowman* ..............................................................12
*UKR / Gongadze* ............................................................ 3
*UKR / Marchenko*.........................................................17
*UKR / Ukrainian Media Group* ....................................... 6